# 2019-cu ilin birinci yarısında Azərbaycanı 6.5% çox xarici qonaq ziyarət edib

2019-cu ilin birinci yarısında Azərbaycanı ziyarət etmiş xarici qonaqların sayı 1.4 mln-a çatıb ki, bu da ötən ilin eyni dövründə ölkəyə gəlmiş 1.3 mln xarici ziyarətçi ilə müqayisədə 86 min və ya 6.5% çox qonaq deməkdir. Gələnlərin böyük hissəsini 29.4%-lə Rusiya (414 min), digər böyük hissəsini isə 24.3%-lə Gürcüstan (342 min) vətəndaşları təşkil edib. Gürcüstan üzrə artım 22.8% və ya 64 min nəfər olub. Qeyd etmək lazımdır ki, bu iki ölkədən gələn qonaqların sayı ümumi gələnlərin 50%-dən çox hissəsini təşkil edib. Türkiyədən gəlmiş qonaqların sayı 3.7% artaraq toplam 148 minə çatıb. Cənubi və Mərkəzi Asiya ölkələrindən gələnlərin sayında yenə də sürətli artım müşahidə olunur - artım ilin ilk yarısı üçün uyğun olaraq 37.8% və 50.2% olub. Azərbaycan üçün Cənubi Asiyanın əsas turizm bazarları Hindistan (27 min; 80.2% artım) və Pakistan (19 min; 24.4% artım), Mərkəzi Asiyada isə Qazaxıstan (20 min; 15.1% artım) və Türkmənistandır (21 min; 85% artım).

Ən böyük azalma İrandan gələnlərin arasında müşahidə olunur. Belə ki, 2018-ci ilin ilk yarısı ilə müqayisədə bu ölkədən gələnlərin sayında 40 min və ya 27.5% azalma olub. Azalma, həmçinin Yaxın Şərq regionundan gələnlər arasında da mövcuddur; sözügedən regiondan 7 min və ya 4.4% az qonaq gəlib. Bu hal əsasən İraq, BƏƏ və Küveyt kimi ölkələr üçün xarakterikdir. Bu ölkələr üzrə azalma 2018-ci ilin eyni dövrü ilə müqayisədə 31.5%, 25% və 14.1% olub. Səudiyyə Ərəbistandan gələnlərin sayında isə təxminən 80% artım müşahidə olunur ki, bu da 15 min nəfər artımla 34 mindən çox xarici vətəndaş deməkdir.

**Qrafik 1: 2019 və 2018-ci ilin yanvar-iyun ayları ərzində 7 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**




2019-cu ilin iyun ayında gələnlərin sayında əhəmiyyətli dərəcədə artım müşahidə olunub – bu artım 17.2% təşkil edib. Bu tendensiya özünü Azərbaycan turizmi üçün xarakterik olan bütün ölkələr üzrə göstərib (**Qrafik 2)**.

Cənubi, Mərkəzi və Şərqi Asiya ölkələrindən gələnlərin sayında rekord həddə artım olub. Cənubi Asiyadan gələnlərin sayında 85.3% artım olub - Hindistan və Pakistan əcnəbilərinin sayı müvafiq olaraq 104% və 75% artıb. Digər Asiya ölkələri üzrə artım 30% və 60% arası təşkil edib. İran, Türkiyə, Yaxın Şərq və Rusiyadan gələnlərin sayı müvafiq olaraq 13.6%, 20.5%, 16.7% və 7.7% artıb. Qeyd etmək lazımdır ki, uzunsürən azalmadan sonra Azərbaycana gələn İran vətəndaşlarının sayında ilk dəfə olaraq artma müşahidə olunub.Yaxın Şərq ölkələri arasında Səudiyyə Ərəbistanını xüsusi olaraq vurğulamaq

olar. Belə ki, iyun ayında bu ölkədən 10 min və 82.5% daha çox qonaq gəlib. Bununla belə iyun ayı üzrə ən böyük artım Gürcüstandan gələnlər arasında müşahidə olunub, belə ki ötən ilin eyni ayı ilə müqayisədə bu ölkədən 11 min və ya 23.4% daha çox xarici vətəndaş gəlib.

**Qrafik 2: 2019 və 2018-ci ilin iyun ayında 7 ölkədən və regiondan gəlmiş xarici səyahətçilər (min)**



**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Sərhəd Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

Cədvəl 1: 2019-cu ilin iyun ayında və 2019-cu ilin yanvar-iyun aylarında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2018-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2019 | | 2018 | |
|---|---|---|---|---|
| | İyun | Yanvar-İyun | İyun | Yanvar-İyun |
| Rusiya | 102 433 | 413 968 | 95 085 | 403 549 |
| Gürcüstan | 58 615 | 342 823 | 47 483 | 279 102 |
| Yaxın Şərq | 47 682 | 145 245 | 40 849 | 151 859 |
| Türkiyə | 27 988 | 147 703 | 23 223 | 142 476 |
| İran | 22 248 | 106 267 | 19 578 | 146 480 |
| Cənubi Asiya | 12 586 | 48 905 | 6 794 | 32 552 |
| Mərkəzi ASiya | 11 767 | 54 056 | 8 668 | 39 235 |
| Şərqi Avropa | 10 828 | 48 290 | 9 556 | 46 439 |
| Qərbi Avropa | 9 696 | 57 071 | 9 277 | 46 017 |
| Şimal-Şərqi Asiya | 5 319 | 17 982 | 3 594 | 11 786 |
| Amerika | 3 215 | 13 346 | 2 990 | 12 339 |
| Cənub-Şərqi Asiya | 1 203 | 5 179 | 770 | 4 297 |
| Digərləri | 1 158 | 4 207 | 921 | 3 350 |
| Afrika | 1 014 | 4 682 | 595 | 3 774 |
| **CƏMİ** | **315 752** | **1 409 724** | **269 383** | **1 323 255** |